KÜRD DÎPLOMAT

xalqı mübariz və qəhrəman xalqdır
Heydər Əliyev

№ 16 (390) 3-9 İyul, Tîrmeh sal, 2017
Ji meha şûbatê sala 2003-a tê weşandin

*Həftəlik İctimai-siyasi qəzet*
Rojnama heftename civakî û sîyasî

Qiymətı: Hêjaye: 40 qəpik



Səh. 2

## Varşavada Azərbaycan-Polşa biznes forumu keçirilib


Səh. 6

## "MƏN FƏXR EDİRƏM Kİ, AZƏRBAYCANLIYAM!"


Səh. 16

## Масуд Барзани: Время покончить с принудительным включением курдов в Ирак


Səh. 3

Gəncə şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulmasının 4-cü mərhələsinin təməli qoyulub


Səh. 3

Tərtərdə 2 iyul - Polis işçilərinin peşə bayramı günü münasibəti ilə tədbir keçirilib


Səh. 7

## VƏTƏNDAŞ


Səh. 7

## Gotereke pirhewas

# Şəddadİ Kürd dövləti Səh. 5

# 100 yıl önce bize söz verdiler Səh. 8

# İŞİD mühasirəyə alındı Səh. 3

# Kürdistan: İran'ın suyu kesmesi Referandumla alakalı Səh. 9

# Kürdlər və Kürdüstan Səh. 4

# Дорожная карта Курдистана Səh. 13


Səh. 9

AK Partili Atalay'dan referandum açıklaması: Kimseden müsaade istemek zorunda değiller


Səh. 10

Latif Epozdemir: Barzanî roleke dîrokî hildaye ser şanê xwe


Səh. 10

Mehmet Emîn Kardaş: Îro şansekî mezin ji Kurdan re heye


Səh. 11

Têmûrê Xelîl: Dema herî baş ji bo serxwebûnê hatiye

# Varşavada Azərbaycan-Polşa biznes forumu keçirilib

Varşavada Azərbaycan-Polşa biznes forumu keçirilib. Prezident İlham Əliyev və Polşa Respublikasının Prezidenti Andjey Duda biznes forumun açılış mərasimində iştirak ediblər.

Polşanın iqtisadi inkişaf nazirinin müavini Tadeusz KOSCİNSKİ biznes forumda çıxış edərək dedi:

-Mən hörmətli prezidentləri və bütün qonaqları salamlamaq istəyirəm. İqtisadi İnkişaf Nazirliyi adından bütün iştirakçıları bu gün keçirilən biznes forumda salamlayıram. Bu, birgə keçirilən tədbirdir. Bu tədbirdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev iştirak edir. Ümidvaram ki, bu gün məhz müzakirələr və fikir mübadiləri bizim iqtisadi inkişafımıza və Azərbaycan ilə Polşa arasındakı iqtisadi əməkdaşlığa zəmin yaradacaq.

Mən hesab edirəm ki, məhz Azərbaycan Polşanın Cənubi Qafqaz regionunda ən etibarlı və perspektivli tərəfdaşlarından biridir. Polşa Azərbaycan ilə münasibətlərin dərinləşdirilməsində maraqlıdır. Bu baxımdan son aylar ərzində hökumətlər səviyyəsində müxtəlif görüşlər keçirilmişdir. Biz ölkələrimiz arasında iqtisadi əməkdaşlığımızı qurmuşuq. Lakin onun bugünkü səviyyəsi mövcud iqtisadi potensiala uyğun deyil. Bunu nəzərə alaraq və xüsusən də bu əməkdaşlığın perspektivlərini görərək biz Azərbaycan Hökumətinin həyata keçirdiyi iqtisadi siyasəti öyrənirik. Bilirik ki, bu siyasət ölkənin bütövlükdə iqtisadiyyatının şaxələndirilməsinə və xüsusən də iqtisadiyyatın bütün digər sahələrinin inkişafına yönəldilib. Biz bilirik ki, Azərbaycan iqtisadiyyatın liberallaşdırılması istiqamətində bir çox addımlar atmışdır. Sərmayələrin qoyuluşu üçün Azərbaycanda münbit şərait yaradılmışdır. Bu baxımdan, həmçinin stimullaşdırıcı tədbirlər də görülüb ki, məhz investorlar cəlb edilsin, güzəştli kreditlərin verilməsi yolu ilə bu kimi iştirakçıların sayı çox olsun. Təbii ki, bu, iqtisadi münasibətlərimizə, ölkələrimiz arasındakı əlaqələrə müsbət təsir göstərir. Hesab edirik ki, bu gün məhz iqtisadi əməkdaşlığın, Polşa ilə Azərbaycan arasındakı əlaqələrin gücləndirilməsində bir çox imkanlar var. Məsələn, gəmi tikintisi, dəmir yolları, daşımalar, inşaat materialları istehsalı, maşınqayırma, energetika, sənaye, neft sənayesi, kənd təsərrüfatı, yeyinti məhsulları, kimya sənayesinin inkişafı baxımından bir çox imkanlar var.

Biz hesab edirik ki, iqtisadi inkişafımızda məhz yeni texnologiyaların araşdırılıb tətbiq edilməsində Polşa şirkətlərinin təcrübəsindən yararlanmalıyıq. Polşa tərəfi nəinki Azərbaycanın daxili bazarında öz iştirakını genişləndirilməsində maraqlıdır, o cümlədən Azərbaycan şirkətlərinin bizim ölkəmizin iqtisadiyyatının müxtəlif sahələrində iştirakına maraq göstərir.

Xanımlar və cənablar, hesab edirik ki, keçirilən bu biznes forum məhsuldar əlaqələrin qurulmasında bir çox imkanlar yaradacaq və əməkdaşlığımız bununla daha da genişlənəcək. Sağ olun.

* * *

**Sonra dövlət başçıları biznes forumda çıxış ediblər.**

**Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı.**

- Hörmətli cənab Prezident.

Xanımlar və cənablar, əziz dostlar.




Əvvəla, mən cənab Prezidentə məni Polşaya səfərə dəvət etdiyinə, mənə və bizim nümayəndə heyətinə göstərdiyi qonaqpərvərliyə görə bir daha minnətdarlığımı bildirmək istəyirəm. Bu gün biz əməkdaşlığımızın inkişafının yeni mərhələsinə qədəm qoyuruq. Mənim Polşaya səfərim çox uğurlu keçir. Biz bir çox sənədləri imzalamışıq. Onların arasında mən strateji tərəfdaşlıq və iqtisadi əməkdaşlıq üzrə Birgə Bəyannaməni xüsusi vurğulamaq istəyirəm. Bu, siyasi və iqtisadi əlaqələrimizin inkişafında yeni bir yol xəritəsini əmələ gətirir. Bəyannamənin adı bizim iqtisadi əməkdaşlığa necə önəm verdiyimizi göstərir. Bugünkü biznes forum onun digər bir göstəricisidir. Çünki biznes icmaları çox həssasdırlar və çox aydın başa düşürlər ki, bu gün Polşa və Azərbaycan arasında yüksək səviyyəli siyasi əlaqələr onlar üçün yeni imkanlara yol açır. Məndə olan məlumata görə, bu gün biznes forumda şirkətlərimiz arasında bir neçə razılaşma imzalanacaqdır.

Əlbəttə ki, ticarət dövriyyəmizin cari səviyyəsi bizi qane edə bilməz və bu gün biz cənab Prezident və nümayəndə heyətləri ilə ticarət dövriyyəsinin necə artırılması yollarını müzakirə etdik. İqtisadi əlaqələrimizə təkan vermək üçün və həmçinin ixrac potensialımızın yaxşı mənzərəsinin formalaşmasına dair əlverişli fürsətlər var. Yəni, biz bir-birimizə nəyi ixrac edə bilər və hansı birgə biznes layihələrini icra edə bilərik.

Polyak dost və tərəfdaşlarımızı çox sürətli iqtisadi inkişaf münasibətilə təbrik etmək istəyirəm. Bu gün Polşa ən yüksək iqtisadi artım sürəti, siyasi və iqtisadi sabitlik nümayiş etdirir. İnkişaf isə bu gün ölkənizin tərəqqiyə doğru yolunu gücləndirmək üçün çox yaxşı imkanlar yaradır.

Azərbaycana gəlincə, ölkəmiz nisbətən gəncdir, müstəqillik yalnız 25 il bundan öncə bərpa olunmuşdur. Biz keçən il bunu qeyd etdik. Bu illər transformasiya illəri - siyasi, sosial və əlbəttə ki, iqtisadi transformasiya illəri olmuşdur. Bu gün Azərbaycan, həmçinin çox yaxşı iqtisadi fəaliyyət nümayiş etdirir. 2004-cü ildən bəri iqtisadiyyatımız üç dəfədən çox artmışdır. Biz işsizliyi və yoxsulluğu 5-6 faiz səviyyəsinə qədər azalda bilmişik. Hazırda ümumi daxili məhsulun 70 faizdən çoxu özəl sektorun payına düşür və maliyyə ehtiyatlarımız xarici borcumuzdan 4-5 dəfə artıqdır. Beləliklə, iqtisadi və siyasi baxımdan Azərbaycan sabit və son iyirmi ildə 200 milyard dollardan çox sərmayə cəlb edə bilmiş bir ölkədir. Bunların təxminən yarısını xarici sərmayələr təşkil edir. Əlverişli investisiya mühiti və əcnəbi investorlar üçün çox etibarlı investisiya şəraiti şirkətlərə Azərbaycanda işləmək üçün yaxşı imkanlar yaradır.

Biz Polşa şirkətləri ilə həm Azərbaycanda, həm də Polşada tərəfdaş qismində müxtəlif layihələrdə çalışmaq istəyirik. Biz investisiya qoyuluşu ilə bağlı layihələrdə iştirak etmək istəyirik. Biz Polşa şirkətlərini Azərbaycanda həyata keçirilməkdə olan enerji, nəqliyyat, tikinti layihələrində tərəfdaş olmağa dəvət edirik. Biz onları podratçı qismində dəvət edirik. Biz şirkətləri Azərbaycanda və regionda bazar potensialı olan sahələrə sərmayə yatırmağa dəvət edirik. Hesab edirəm ki, belə yaxşı siyasi münasibətlərə və iqtisadi əməkdaşlıq üzrə aydın təsəvvürə malik olmaqla biz çox qısa müddət ərzində uğur qazana, ticarət dövriyyəsini, zənnimcə, bir neçə dəfə artıra və biznes icmaları üçün çox möhkəm təməl yarada bilərik.

Azərbaycan sərhədlərimizdən çox kənara uzanan olduqca önəmli enerji və nəqliyyat layihələrini həyata keçirir. Nəqliyyat sahəsində, cənab Prezidentin qeyd etdiyi kimi, biz artıq dəhlizlərin yaradılması üzrə birgə fəaliyyətə başlamışıq. Azərbaycan nəqliyyat dəhlizlərinin yaradılması üzərində uzun illərdir ki, çalışırdı və indi bütün zəruri nəqliyyat infrastrukturu artıq yaradılmışdır. Bizim bütün qonşularımızla şimal, cənub və qərb istiqamətində dəmir yolu əlaqəmiz var. Bizim bütün təyyarələri qəbul edə bilən altı beynəlxalq hava limanımız var. Bizim yükdaşıma donanmamız dünya miqyasında fəaliyyət göstərən ən aparıcı yükdaşıma donanmalarından biridir. Ölkəmiz regionla ən yeni magistrallar şəbəkəsi ilə birləşir. Biz daşımaların həcmini Xəzər dənizində yeni tikilmiş ən böyük liman vasitəsilə artırırıq. Onun birinci mərhələsi artıq fəaliyyət göstərir və növbəti il dəniz limanının tikintisinin tamamlanması bizə ən azı ildə 15 milyon ton yük və bir milyon ton konteyneri yükləyib-boşaltmaq imkanını verəcəkdir. Artıq Çindən Avropaya gedən sınaq konteyner qatarları Azərbaycandan keçir. Beləliklə, Şərq-Qərb nəqliyyat dəhlizi demək olar ki, icra edilib. Azərbaycan nəinki təkcə ölkə daxilinə sərmayə yatırmış, eyni zamanda, Gürcüstanda dəmir yolunu tikmək üçün 700 milyon dollardan çox maliyyə dəstəyi göstərmişdir. İndiki mərhələdə biz İranda dəmir yolunu tikmək üçün maliyyə dəstəyinin göstərilməsi məqsədilə iranlı qonşularımızla danışıqların ən son mərhələsindəyik. Bu dəmir yolu İran dəmir yollarını bizim dəmir yolları ilə birləşdirəcəkdir. Beləliklə, biz çoxsaylı dəhliz formatını, Azərbaycan ərazisindən keçən, Şimali Avropadan Hindistana qədər uzanan Şimal-Cənub və Çindən Qərbi Avropaya qədər uzanan Şərq-Qərb dəhlizlərini yaratmış olacağıq.

Polyak dostlarımızla üzərində çalışdığımız digər bir layihə isə Cənub-Qərb dəhlizidir. Bunu cənab Prezident də qeyd etmişdir və mən çox şadam ki, Polşa bizim tərəfdaşımızdır. Şimal-Cənub və Şərq-Qərb dəhlizləri vasitəsilə yüklərin Azərbaycan ərazisindən çatdırılma vaxtı ənənəvi marşrutlarla müqayisədə ən azından iki dəfə qısa olacaqdır. Çoxlu işlər görüləcək, var-dövlət əmələ gələcək və layihə özü ilə yeni əməkdaşlıq sahələrini gətirəcəkdir.

Həyata keçirdiyimiz və Avropada çox yüksək səviyyədə dəstəklənən digər bir vacib layihə "Cənub Qaz Dəhlizi" layihəsidir. Bu gün bu layihə Avropaya qazın çatdırılması üçün yeganə yeni mənbədir. Cənub Qaz Dəhlizi Azərbaycanın bir neçə il bundan öncə başladığı layihədir. Bu, dəyəri 40 milyard dollar təşkil edən və demək olar ki, artıq tamamlanan bir layihədir. Bizə bu layihəni 100 faiz tamamlamaq üçün 2-3 il lazımdır. İndi bu layihənin müxtəlif seqmentlərinin icrası 40-95 faiz arasındadır. Bu, Avropaya təbii qazın çatdırılması üçün digər bir mənbə olacaqdır. Bu, enerji şaxələnməsi, enerji təhlükəsizliyi, Avropa bazarlarına təbii qazın davamlı çatdırılması deməkdir. Biz cənab Prezidentlə bu sahədə əməkdaşlığın perspektivlərini müzakirə etdik. Azərbaycan Avropa bazarlarına neftin çatdırılmasında artıq etibarlı tərəfdaşdır. Bizim Polşa ilə əməkdaşlığımız da çox uğurludur. Beləliklə, əməkdaşlığımızın bu aparıcı qüvvələri qlobal enerji, nəqliyyat və təhlükəsizlik layihələri kimi mühüm əhəmiyyət kəsb edir. Lakin, eyni zamanda, onlar bu layihənin bir hissəsi olmaq üçün özəl şirkətlərə böyük imkanlar açır. Mən bir daha Polşa şirkətlərini bizim tərəfdaşımız olmağa dəvət edirəm. Biz daha sıx iqtisadi və işgüzar əlaqələr yaratmaq istəyirik. Polşa bizim üçün yaxın dost və nəinki Avropada, dünya miqyasında böyük potensialı və çox yaxşı mövqeyi olan bir ölkədir.

Bu gün həmkarım Prezident Dudanı böyük müvəffəqiyyət - Polşanın Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasına demək olar ki, iki yüz ölkənin dəstəyi ilə qeyri-daimi üzv seçilməsi münasibətilə təbrik etdim. Bu, ölkənizə beynəlxalq səviyyədə olan hörmətin və sizin etdiklərinizə verilən qiymətin əlamətidir. Əmin ola bilərsiniz ki, Cənubi Qafqaz və Xəzər regionunda sizin etibarlı dostunuz və tərəfdaşınız var. Bacarıqlı, sözünə əməl edən və əməkdaşlığımızı gücləndirmək istəyən dostunuz var. Əminəm ki, ölkələrimizin biznes icmaları imkanları ətraflı şəkildə nəzərdən keçirəcəklər. Əminəm ki, siz bu gün kənd təsərrüfatı, sənaye, turizm, əczaçılıq və böyük potensialı olan digər əməkdaşlıq sahələrində müxtəlif layihələri müzakirə edəcəksiniz. Biz bunu Prezident Duda ilə artıq müzakirə etdik və əminəm ki, müzakirələriniz və qarşılıqlı əlaqələriniz yaxşı nəticələrin hasil olunmasına gətirib çıxaracaqdır.

Bir daha sizi salamlamaq, forumda iştirak etdiyiniz üçün sizə minnətdarlığımı bildirmək və uğurlar diləmək istəyirəm. Çox sağ olun.

* * *

Sonra biznes forum işini müzakirələrlə davam etdirib.

Biznes forumda iqtisadiyyatın müxtəlif sahələrini təmsil edən 150-dən çox, o cümlədən Azərbaycandan 60-dan artıq iş adamı iştirak edib.

Forum çərçivəsində Azərbaycanın və Polşanın müxtəlif biznes qurumları və şirkətləri arasında ümumilikdə beş müqavilə və əməkdaşlıq memorandumu imzalanıb. ***president.az***

# Gəncə şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulmasının 4-cü mərhələsinin təməli qoyulub

Gəncə şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması Azərbaycan hökuməti və Almaniya İnkişaf Bankının (KFW bankı) birgə maliyyələşdirdiyi "II Açıq Kommunal İnfrastruktur Proqramı" çərçivəsində həyata keçirilir.

Təməlqoyma mərasimində Gəncə şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyev, Azersu ASC-nin sədr müavini Etibar Məmmədov, Azər Aqrar Tikinti ASC-nin direktoru Bayram Həsənov, AMEA-nın Gəncə bölməsinin akademik katibi Fuad Əliyev və şəhər ictimaiyyəti iştirak edib.




Gəncə şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyev tədbir iştirakçılarını salamlayaraq əlamətdar hadisə münasibəti ilə onları təbrik edib. Gəncə şəhərini içməli su ilə təmin etmək üçün Göygöl, Qızılqaya mənbələri və Şəmkirçay su anbarın;n seçildiyini deyən Elmar Vəliyev bildirib ki, Gəncədə yaranacaq tullantı suları gələcəkdə Samux rayonu ərazisində inşa ediləcək və məhsuldarlığı sutkada 120 min kubmetr olacaq təmizləyici qurğuda zərərsizləşdiriləcəkdir. Şəhərdə görülən bütün işlərin Prezident İlham Əliyevin Gəncəyə olan diqqət və qayğısı olduğunu qeyd edən İcra başçısı vurğulayıb ki, 3-cü mərhələ 3 ay müddətində yekunlaşdırılaraq 30-a yaxın küçənin asfalt örtüyünü çəkiləcəkdir.

Azersu ASC-nin sədr müavini Etibar Məmmədov layihənin birinci və ikinci mərhələlərinin artıq başa çatdığını deyib. Sədr müavini qeyd edib ki, bu mərhələ nəticəsində Gəncədə təxminən 80 000 abonent içməli su ilə təmin olunacaq. Etibar Məmmədov vurğulayıb ki, bu mərhələdə çərçivəsində həcmi 5000 kubmetr olan su anbarının, 195 km içməli su, 144 km kanalizasiya şəbəkəsinin, 41 km kollektorun və 2,3 km mikrotunelin inşası nəzərdə tutulur.

Azər Aqrar Tikinti ASC direktoru Bayram Həsənov Göygöl və Goranboy rayonlarında icra etdikləri layihələr haqqında söz açıb. Bayram Həsənov Azər Aqrar Tikinti adında layihənin bu mərhələsinin 30 ay nəzərtə tutulmasına baxmayaraq 24 aya tam keyfiyyətlə təhvil veriləcəyini bildirib.

AMEA-nın Gəncə bölməsinin akademik katibi Fuad Əliyev Gəncə sakinləri adından cənab İlham Əliyevə minnətdarlığını bildirərək Nizami yurdunda həyata keçirilən sosial infrastruktur layihələrdən söz açıb.

Daha sonra layihənin 4-cü mərhələsinin təməli atılıb.

Bildirək ki, layihə Gəncə şəhəri ilə yanaşı, Göygöl rayonunun Murovdağ qəsəbəsi, Hacıməlik və Mollacəlilli kəndlərini əhatə edəcək. Layihənin birinci mərhələsi çərçivəsində işlərə 2011-ci ilin avqust ayında başlanılmış, Göygöl su mənbəyində məhsuldarlığı saniyədə 200 litr olan yeni drenaj sistemi yaradılmış, Gəncə şəhərində həcmi 4000 kubmetr olan su anbarı tikilmiş və mənbədən anbara qədər 24,3 km uzunluğunda magistral kəmər çəkilib. Bu mərhələ üzrə tikinti işləri 2014-cü ilin fevral ayında başa çatdırılıb.

Layihənin ikinci mərhələsində Qızılqaya su mənbəyində bərpa-yenidənqurma işləri aparılmış, bu mərhələ çərçivəsində 4 km uzunluğunda magistral kəmər, ümumi tutumu 12000 kubmetr olan 3 ədəd anbar və 6,9 km uzunluğunda anbarlararası xətt inşa edilib. Gəncə şəhərinin içməli su tələbatının böyük hissəsi Şəmkirçay su anbarının yaxınlığında tikilən və məhsuldarlığı sutkada 140 min kubmetr olan sutəmizləyici qurğudan təmin ediləcək. Layihəyə əsasən bu mənbədən Gəncə şəhərinə saniyədə 1336 litr su veriləcək. 27,5 km uzunluğunda Şəmkirçay-Gəncə magistral kəmərinin inşası artıq başa çatdırılıb. Gəncə şəhərinin içməli su və kanalizasiya şəbəkələrinin tikintisi mərhələlərlə həyata keçirilir və ümumilikdə 855 km içməli su, 813 km kanalizasiya şəbəkəsinin tikintisi nəzərdə tutulur. Layihənin üçüncü mərhələsində 81 km içməli su, 70 km kanalizasiya şəbəkəsi çəkilib. Eyni zamanda şəhərdə 119 çoxmənzilli yaşayış binasının daxili şəbəkəsi yenidən qurulmuş, 7 minə yaxın sayğac quraşdırılıb.

Hazırda 350 min sakini olan Gəncə şəhərində əhalinin təxminən 45 faizi və ya 156 min nəfəri mərkəzləşdirilmiş qaydada içməli su ilə təmin olunur. Onlar qrafikli rejimlə su alır. Gəncə şəhərində 315 km uzunluğunda kanalizasiya şəbəkəsi mövcuddur və şəhərin təqribən 45 faizini əhatə edir. Tullantı sutəmizləyici qurğu işləmədiyindən tullantı suları Samux rayonu ərazisindəki boş sahələrə axıdılır.

# Tərtərdə 2 iyul - Polis işçilərinin peşə bayramı günü münasibəti ilə tədbir keçirilib

2 iyul - Polis işçilərinin peşə bayramı günü münasibəti ilə Tərtər rayonunda tədbir keçirilib. Tədbir iştirakçıları öncə Ulu Öndər Heydər Əliyevin Mərkəzi Meydanda ucaldılmış abidəsi önünə tər gül-çiçək dəstələri düzüb, xatirəsini ehtiramla yad ediblər.

Sonra tədbir rayon Gənclər Mərkəzində davam etdirilib. Tədbiri giriş sözü ilə açan rayon polis şöbəsinin rəisi, polis polkovniki Rauf Məcidov tədbir iştirakçılarını Azərbaycan polisinin peşə bayramı günü münasibətilə təbrik edib, Azərbaycan polisiinin keçdiyi tarixi yola nəzər salıb, Azərbaycan polisinə Ulu Öndər Heydər Əliyevin hakimiyyəti illərində böyük diqqət və qayğının göstərildiyini, hazırda bu diqqət və qayğının Ulu Öndərin siyasi kursunun layiqli davamçısı respublika prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini vurğulayıb.

Tədbirdə çıxış edən Tərtər rayon İcra Hakimiyyətinin Başçısı Müstəqim Məmmədov peşə bayramı münasibəti ilə polis işçilərini təbrik edib, onlara çətin və şərəfli işlərində uğurlar arzulayıb.

Bildirib ki, 1993-cü ildə ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra həyata keçirilən zəruri tədbirlər ölkənin ictimai-siyasi həyatında hərtərəfli islahatların gerçəkləşməsi ilə nəticələnib. Müsbət dəyişikliklərin fonunda hüquq-mühafizə orqanlarının, o cümlədən polisin fəaliyyətinin gücləndirilməsi, xalqa, dövlətə sədaqətli şəxsi heyətin formalaşdırılması və qanunun aliliyini əsas prinsip kimi qiymətləndirən əməkdaşların peşə xidmətinə cəlb edilməsi kimi önəmli addımlar atılıb. Ulu öndər Heydər Əliyevin rəhbərliyi altında həyata keçirilən islahatlar çərçivəsində daxili işlər orqanlarının fəaliyyətini, habelə insan hüquq və azadlıqlarının təmin edilməsi mexanizmlərini tənzimləyən qanunvericilik bazası yaradılıb, ölkədə mütəşəkkil cinayətkarlığa, sabitliyə təhdid yaradan təhlükələrə qarşı uğurlu mübarizəyə nail olunub, vətəndaşların dinc, əmin-amanlıq içərisində yaşamaları üçün zəruri şərait yaradılıb.

Tədbirdə iştirak edən rayon prokuroru Şıxəli Alməmmədov, Tərtər özünümüdafiə batalyonunun sabiq komandiri Pənah Məmmədov, Polis Veteranları İctimai Birliyinin rayon şöbəsinin sədri Qeys Qəhrəmanov çıxış edərək 99 illik tarixə malik Azərbaycan polisinin keşməkeşli olduğu qədər də şərəfli bir yol keçdiyini, tarix boyu Vətənə, xalqa sədaqətlə və ləyaqətlə xidmət etdiyini, dövlətçiliyin əsas sütunlarından birinə çevrildiyini bildirdilər.



Sonra rayon polis şöbəsi rəisinin şəxsi heyətlə iş üzrə köməkçisi, polis mayoru Ərşad Əhmədov daxili işlər naziri Ramil Usubovun şəxsi heyətə ünvanladığı təbrik məktubunu oxudu. Tədbirin sonunda Tərtər Rayon İcra Hakimiyyəti və rayon polis şöbəsi tərəfindən xidmətdə fərqlənən bir qrup polis işçisinə Fəxri Fərmanlar, qiymətli hədiyyələr və pul mükafatları təqdim edildi.

# İŞİD mühasirəyə alındı

ABŞ-ın dəstəklədiyi Suriya Demokratik Qüvvələri (SDQ) Rakkada İŞİD üzvlərini tamamilə mühasirəyə



aldığını açıqlayıb. Kürd və ərəb qüvvələrindən ibarət demokratik qüvvələr İŞİD-in cənuba qaçmaq üçün istifadə etdiyi bütün yolları bağlayıb.

İŞİD-ə qarşı qurulan və ABŞ-ın rəhbərlik etdiyi koalisiyanın nümayəndəsi Ryan Dillon da Rakkaya cənubdan gedən bütün əsas yolların demokratik qüvvələrin nəzarətində olduğu bildirib. Açıqlamada qeyd edilir ki, SDQ bir neçə fərqli qollardan liderləri tərəfindən tərk edilmiş İŞİD-ə təzyiq göstərməyə davam edir və bunun sayəsində bu həftə Rakka və çevrəsindəki 20 kilometrlik sahəni İŞİD-dən təmizləyib. Demokratik Qüvvələr Rakkada ələ keçirdikləri yerlərdə İŞİD tərəfindən qazılmış yeraltı tunellər aşkar ediblər. Bu tunel şəbəkələr terror təşkilatının insanları kütləvi şəkildə qətl etmələri üçün istifadə edilirmiş.

Bütün bu hərbi uğurlara baxamayaraq, Rakka şəhərində hələ də 100 000 insan müharibənin ortasında köməksiz vəziyyətdə qalıb. BMT Rakkada bu ay ən az 173 insanın öldürüldüyünü açıqlayıb.

**Publika.az**

# Kürdlər və Kürdüstan

## Kürdlərin coğrafiyası və yerləşməsi

**(Əvvəli 388-ci sayımızda)**

Ancaq qadınlar üzlərini örtmür, camaat içində kişilərlə bir yerdə oturur və ümumi danışıqda öz sözlərini deyirlər. Soan göstərir ki, kəndlərdə dəfələrlə ev sahibəsi əri evdə olmayanda onu qəbul etmiş, oturub saxta utancaqlıq, ya da türk, fars qadınları kimi təvazökarlıq göstərmədən onula söhbət etmiş və yemək, içmək ehtiyatlarını səxavətlə onunla bölmüşdü. Əri gələndə qonağa hörmət əlaməti olaraq ev sahibəsi əri atını rahatlayıb içəri girənəcən qonağı tərk etmir. Heç bir rahibəlikdən söz ola bilməz. Gənclər bir-birini əla tanıyır. Kəbindən qabaq əsl görüşmə, sevişmə baş verir. Kürdün qəlbində eniş romantik hisslər hökm sürür. İyirmi il bundan qabaq, Souq-bulaq yaxınlığında qəribə bir hadisə baş verdi. Gənc avropalı xanım bir kürdə vurulmuşdu. Konsulun və valideynlərinin nəsihətinə baxmayaraq, müsəlmançılığı qəbul edib əri ilə qaldı.

Kürdlərdə boşanma çox asandır. Mübahisənin qızğınyerində bəzən and içirlər ki, əgər razılığa gələ bilməsələr mütləq ayrılacaqlar və doğrudan da a yrılırlar. Sonra peşimançılıq əri incitməyə başlayır. O, öz keçmiş arvadını yenidən evinə gətirməyə şad olardı. Ancaq qanuna görə bu, mümkün deyil. Qadın aradakı fasilədə ancaq baqa bir kişiyə gedib boşanandan sonra əvəlki ərinə gələ bilər. Şəhərlərd əhətta ilk boşanmanın nəticələrini ləğv etmək üçün, bu üsulu pulla icra etməyə razılıq verən xüsusi peşəkarlar var. Bu zaman çoxlu kürd lətifələri həsr olunmuş bir sıra qui pro quo baş verir. Bütün bunlar əsasən şəhərlərə aiddir. Köçərilərin adəti isə sadə və ciddidir.

Kürdlərin «ronu» adlı xüsusi yallı rəqsi var. Oyunun başçısı bir əlində bükülü yaylıq tutub, o biri əli ilə əl-ələ tutuşmuş oyunçuları aparır. Bir dəfə bu rəqs varlı bir kürd mülkədarının evində mənim şərəfimə təşkil olunmuşdu. Barabanın müşaiyəti ilə zurna çalan kimi bütün kürd qadınları beş dəqiqəni içində təzə donlarını geydilər, başlarına kapora oxşayan papaq qoydular, sürmələndilər və kişilərlə növbələşib düzülərək böyük həvəslə axşama qədər öz ağır ayaqlarını yerə döyərək oynadılar. Kürdlərdə, şübhəsiz ki, qadının öz fərdiyyəti vardır. Məs, ağlı və gözəlliyi ilə fərqlənən ananın adı oğlunun adının yanında yazılması əsassız deyildir. Mən hər hansı bir «BaniriŞaşan», yəni Şaşanın oğlu Banar anasının şöhrətini hər yana yayır. Qadının qəbil əbaşçısı olması, qəbiləni tamamilə ona tabe olmasına aid çox misallar çəkmək olar. Məsələn, məlumdurk i, həkari türklər tərəfindən idarə tutulanda dairə qadın tərəfindən idarə olunurdu. (Hartman) Süleymani yaxınlığında kiçik Hələbçə şəhərində bizə 1914-\cü ildə osman paşa Cafın dul qadını məşhur Adil əxanımı görmək qismət oldu. Bir neçə il bundan əvvəl o, faktiki olaraq bütün dairənin müdiri idi. Bu iş türklər tərəfindən nominal olaraq onunərinə tapşırılmışdı, o isə heç vaxt öz yerində olmurdu. Soan fars taciri adı altında bir müddət onun kiçik həyətində yaşamış və onun öz təbəələrini idarə etmək, mühakimə etmək və bu zaman cürbəcür parçaların alınması, ev təsərrüfatının idarə olunması kimi qadın işlərini unutmamasını olduqca maraqla təsvir etmişdir. İndi Gənc Türklər hökuməti Hələbçəyə əsltürk məmuru göndərib və Adilə xanım istefada bir qədər etibardan (gözdən) düşmüş kimi yaşayır. O, özünü böyük ləyaqətlə aparır. O, bizim düşərgəyə bir yığın gəliin və qulluqçuları ilə gəlmişdi. Və həvəslə şəklini çəkdirməyə razılıq verdi. Oğluna verilmiş hədiyyəyə görə təşəkkürünü fransızca yazılmış məktubla bildirmişdi. Sonra məlum oldu ki, məktubu Sennə şəhərində katolik missionerindən fransız dilini öyrənmiş gərc bir kürd yazmışdı. Bizim ekspedisiyanın yeganə avropalı xanımına hələbcədə yaşayan qadınların son dərəcə diqqət göstərməsi, faktı yəqin ki, Adilə xanımın qadın adını böyük tutması ilə izah olunur. Gələn xanıma baxmaq üçün qarşımıza çoxları çıxmışdı. Sonra qatıq, tuş, yumurta və s. ibarət təbrik hədiyyələri ilə, dəstə ilə görüşə gəlib çadrımızı əhatə edənlərin əlin-



В. Ф. Минорскiй

КУРДЫ.

ЗАМѢТКИ и ВПЕЧАТЛѢНIЯ.

(Съ приложенiемъ карты).

Персидскiе курды — шеккаки.

ПЕТРОГРАДЪ.

Типографiя В. Ө. Киршбаума, Дворц. пл., д. М-ва Финансовъ.

1915.

dən macal yox idi. Bu zaman bizim qonaqların əxlaqı, tərbiyəsi 7qəribə idi. Nə bir kobud sual, nə bir yersiz, istehzalı gülüş. Hamısı yeni həyattərzinə maraqla baxırdılar. Verdiyimiz yeməyi qəbul edirdilər və tam inamla öz işlərindən danışırdılar.

Kürdlər, ümumiyyətlə uşaqsevəndirlər. Hər bir başçının yanında onuncu, ya on ikinci oğlu – sevimli pintibalası qurdalanır. Çox vaxt dağlarda igid bir kürdü qocalığının ümidini qucağına almış görürsən. Mənim qabaqkı səfərlərimdən bir səhnə yadıma düşür. Bir dəfə bizim karvanımız uçurumun üstündəki dar yolla gedirdi. Birdən dağlanı arxasından bizim üstü müzfəki keçi cığırında iki adam göründü. Qabaqda yüngül geyinmiş kürd, görünür yoxsul kəndlidir, qucağında əski-üsküyə bükülü xəstə uşağı gətirir. Ardınca ərinin yükünü yüngülləşdirmək üçün onun xəncərini götürmüş mehriban, ancaqqüssəli sifətli arvadı gəlirdi. Aydın oldu ki, uşaq damın üstündən yıxılıb və özündən gedib. Valideynlər onu qonşuluqda yaşayan ara həkiminə göstərməyə tələsirdilər. Şərqdə həkim kimi tanınmış avropalıları görən kimi ana atın yüyənindən yapışıb ayaqlarından öpməyə başladı ki, onun uşağını xilas etsinlər. Bu səhnədə çoxlu səmimiyyət və cansıxıcı dərd vardı. Antiteza kimi yadıma kürdlərin təhlükəyə, ölümə nifrəti və bir kürd naçalnikinin «Ancaq öz yatağında ölmək biabırçılıqdır. Əgərmənə güllə dəysə, və məni evə gətirsələr, hamı sevinəcək ki, mən necə lazımsa ölmüşəm.» Bəlkə də bu sərt fəlsəfəyə kürd anaları da şərikdirlər. Ancaq bədbəxt qadının dərdi onların qəlbinin daha zərif telləri barədə inandırıcı təsəvvür yaradırdı.

Bir çox qəbilələrə bölünmüş, müxtəlif coğrafi şəraitlərdə yaşayan, yüksək mədəniyyətin səviyyəisnə çatmayan, cilalanmamış nəhayət, demək olar ki, öyrənilməmiş bir xalqın xarakteri haqqında tam və ətraflı təsəvvür yaratmaq mümkün deyil. Bütün bu deyilənlərə ayrı, ya başqa xalqlarla, xüsusilə, xristianlarla bir yerdə yaşamaqdan asılı olaraq kürdlərin xarakterindəki bəzi fərqləri də əlavə etmək mümkündür. Hamını eyni həyat şəraiti birləşdirən yerdə, hətta dövlət hakimiyyəti olmasa da1 bəzi qaydaya oxşarlıq yaranır. Sülemani, Sour-bulaq və b. Şəhərlərdə kürdlər daha yaraşıqlı olurlar.

Döyüşkənlik elementləri az olan həyat (Azərbaycan türkləri – şiələr, erəmnilər kimi) şübhəsiz ki, kürdləri pozur. Burada ikimənəviyyat yaranır – biri zərbəyə zərbə iləcavab verənlər üçün, o birinin zəifliyi isə ancaq gücünvə qənimətin asanlığı ilə tovlayıb başını aldadır. Güc alicənab və mərd olmalıdır. Təsəvvürü uzun və zərif sivilizasiyanın məhsuludur. Ancaq faktiki olaraq onu aşağı təbəqələrində insan hələ insan üçün canavardır, zəiflik nəinki nu daşıyan üçün məhv edicidir, eyni zamanda güclülər üçün də pozucu təsir göstərir. Ancaq xırda maraqlardan yuxarıda duran dövlət hakimiyyəti kürdlərlə başqa xalqlar arasındakı münasibəti bərabərləşdirə və qaydaya sala bilər. Ancaq İran özünün dinc müsəlmanlarından kürdləri qorumaqda acizdir. Ancaq Türkiyədə kürdlər sistematik olaraq ermənilərin üstünə qısqırdılır. Və bu siyasi intiriqanın vəhdəti, cəzasız zənginləşmə perspektivi ilə kürdlərdən də mədəni xalqların davam gətirməyəcəyi aldatma idi…

Beləliklə, biz mahiyyət etibarilə üç müxtəlif probelmdən ibarət olan «kürd məsələsi»nə yaxınlaşdıq. Birincisi və ən əsası kürdlərlə ermənilərin birgə yaşayışını yoluna qoymağa aiddir. Atırladaq ki, ermənilər ancaq Van gölü yaxınlığında mütləq üstünlük təşkil edirlər. Şübhəsiz, onlar daha çox inkişaf etmiş element kimi öz ziyalılarından ibarət təcrübəli başçılara malikdirlər və ədalətli rejimdə öz layiqli mədəni üstünlükləre nail ola bilərlər.

1) Bir dəfə kiçik kürd şəhəri Saqızda dövlət nümayəndələrinin tamamilə olmadığı bazar və küçələrdə qaynar həyatın olmasından heyrətə gəldim.

Ancaq erməni kəndlilərinin bu yerdə də öz səviyyələriilə oturaq kürdlərdən çox üstün olduğunu iddia etmək olmaz. Yuxarıda artıq göstərildiyi kimi ucqar (dikiy) mahallarda tamamilə kürdcə danışan erməni icmaları var. Erməni kəndlərində yaşayan – bəzən qarət etmə, bəzən qorxudan qonşuları şirnikdirməklə – müsəlmanlardan kasbdır.

Ümumiyyətlə, kürd-erməni ərazisinin




qarışıq əhalisinin gələcəkdə ağır fəlakətlər törədə iləcəyi nəzərə alınmayıb. Əgər indiki türk hakimiyyətsizliyi və haqsızlığı götürülsə, onda çoxəsrlik qonşular olan erməni və kürdlər nə səbəbə öz aralarında modus vivendi-ni elə yaratmasınlar ki, kürd heyvandarlığı erməni sənətkarlığı və əkinçiliyinitamamlasın. Hələlik çox gərgin milli ehtirasların toqquşma qorxusu olduğu üçün yuxarı qüvvələrin nəzarəti və eyirxah vasitəçiliyi lazım idi.

Qeyd edək ki, metorianlarda kürdlərin qarışıq yaşadığı həkaridə keçən əsrin 40-cı illərindən erməni qırğınına bənzər bir şey baş verməyib1. Görünür, köhnə zamanlarda ermənilərlə kürdlərin münasibəti də daha hamar imiş. Erməni yazıçısı Abovyanın onlar haqqında rəyi çox məşhurdur. O, 1846-cı ildə yazmışdı "döyüşkənlik, səmimilik, düzgün, öz başçılarına sonsuz sədaqət, verdiyi sözə dəqiq əməl etmək, qonaqpərvərlik, qan intiqamı və hətta yaxınqohumlar arasında qəbilə düşmənçiliyi, oğurluq, soyğunçuluq ehtirası, qadına sonsuz ehtiram – bütün xalqa xas olan ümumi məziyyətvə keyfiyyətlər bunlardır".2 İlk baxışdan görünür ki, bu xarakteristika çox xeyirxahdır. Həta onu bəzi hissələri çox şişirdilib. Məsələn, mən kürd düzlüyü və səmimiyyətinin altın-

1) Biz xirstianların üstünlük təşkil etdiyi əşirət pestorianlarını deyil, şimalda və şərqdə ayrı-ayrı kəndlərdən danışırıq.

2) Abovyan eləbu mənada kürdlərin «cəngavər» adlandırır. Bax. Lerx, issledovaniya. 1.28.

3) Və burada Rusiyaya getmiş və heç birsənədi olmayan kreditorlara kürd musa bəy təərfindən borcun qaytarılmasını xatırlatmaq lazımdı, (Mayevski) ya da Azərbaycanda ödəniş vaxt keçmiş kürd mülklərinin erməni tacirlənin əlinə keçməsi.

Dan qol çəkməyə cəsarət etməzdim. Amma bütün bunlar «yeni erməni ədəbiyyatının atasının» kürdlərə qarşı düşmənçiliyinin olmadığının göstəricisi kimi xüsusilə əlamətdardır.

Kürd məsələsinin ikinci tərəfi kürdlər arasında milli hərəkatın şübhəsiz mövcudluğudur. Onların əksəriyyəti başqa xalqlardan təcrid olunmuş şəkildə cənubda yaşayır. Başında ehtimal ki, ən mühüm kürd qəbilə başçılarının durmağa çalışdığı hərkatın necə təzahür edəcəyini demək çətindir. Ancaq söhbət nə qədər ki, türklərin kürdləri udmağından xilas olmaqdan gedir siyasi düşüncə və ən sadə həqiqət ari kürdlərə1 öz dilini, xalqını tam müdafiə etmək, yazı və məktəblər yaratmaq imkanı verilməlidir. Bir daha qeyd etmək lazımdır ki, ayrı-ayrı qəbilələr nə qədər vəhşi olsalar da, kürdlər heç də hər hansı bir ibtidai poleneziyalılar kimi zəif ağıllı irq deyillər. Əksinə, onların beynində, görünür, mədəni fikri təfəkkürü mənimsəmək üçün heç bir maneə yoxdur. Çoxlu kürdlər türk, xüsusilə hərbi məktəbini keçiblər. Bu vaxta qədər inkişaf etmiş kürd yazısının olmaması-nı hər hansı bir anlayışın ifadəsini bacararaq türkcə yazıb oxumaq əvəz etmişdir. Türkiyə və İranda2 kürdlərdən bir sıra məşhur xadimlər çıxıblar. Kürdlər özləri belə hesab edirlər ki, türk ordusunda, daha çox Süleymaniyədən olan minə qədər zabit həmvətənləri vardır. Nəhayət, kürdlərin roluna üçüncü baxış vardır. Onlar Şimali Mesapatamiyanı dövrələmiş bir zolaq kimi yerləşiblər.

1) Hər halda belə bir ad, məsələn bolqarların slovanlara aid edilməsindən az hüquqa malik deyil.

2) Məs. Böyük vəzir Səid paşa, görkəmli siyasi xadim Mayıl Babanzadə, məşhur Əmir-Nizam (Azərbaycanın general qubernatoru və s.)

**(Ardı var)**

***Səhifəni Hazırladı: Tahir Süleyman***

# ŞƏDDADİ KÜRD DÖVLƏTİ

Azərbaycan tarixən çox millətli ölkə kimi tanınmışdır. Əlverişli coğrafi mövqeyə malik olan Azərbaycanda müxtəlif etnik mənşəyə malik olan xalqlar əsrlər boyu birlikdə yaşayaraq müasir Azərbaycan xalqının formalaşmasında yaxından iştirak etmişlər Antik Yunan Roma müəllifləri-Miletli Hekatey, Lampsaklı Xaron, Lidiyalı Ksanf, Herodot, Knidli Ktesi, Ksenofont, Strabon, Tit Livi və s. Azərbaycanda yaşayan müxtəlif tayfalardan bəhs etmişlər. Məşhur yunan coğrafiyaçısı Strabon (e. ə. 63-b. e. 23-cü illər) Albaniyada (müasir Azərbaycan Respublikası) yaşayan 26 tayfanın adın çəkir. Pəhləvi, erməni, ərəb, fars, Suriya mənbələri Azərbaycanda yaşayan müxtəlif dillərdə danışan xalqlar barədə məlumat verir. Ərəb müəllifi İbn Hövqəl Qabh(Qafqaz) dağlarında 360 dildə danışıldığın göstərir. Digər məşhur ərəb səyyah-coğrafiyaşünası və tarixçisi əl-Məsudinin yazdığına görə Qafqazda hər birinin öz hökmdarı və başqalarının anlamadığı dili olan 72 xalq yaşayır.

İrandilli xalq olan kürdlər Azərbaycanın aborigen sakinləri olub qədim dövrlərdən müasir Azərbaycan və Ermənistan ərazilərində yaşamışlar. Mənbələrdə kürdlər müxtəlif adlarla yad edilmişdir. Məsələn, erməni mənbələrində kürdlər daha çox marlar(midiyalılar) adlanır. Sasanilərin hakimiyyəti dövründə (III-VII əsrlər) kürdlər regionun əsas etnik ünsürlərindən biriydi. Təsadüfi deyil ki, ərəb mənbələri Şirvan və həttda Dərbənddə də kürd məskənlərinin olmasından bəhs edirlər. Ərəb işğalı prosesində ərəblərlə azərbaycanlılar arasında bağlanan müqavilədə Balasakan və Savalan kürdlərinin adlarının çəkilməsi kürdlərin yadellilərə qarşı mübarizəsini və əsas etnik qüvvələrdən biri olmasını göstərir. Təsadüfi deyil ki, Ərəb xilafətinin parçalanması nəticəsində yaranan feodal dövlətlərinin əksəriyyətində hakim sülalələr kürd mənşəli tayfalar olmuşlar. Hətta türk mənşəli Sacilər dövlətinin (889-941-ci illər) sonuncu hokümdarı Deysəm ibn İbrahim ibn Şadluyə mənşəcə kürd olmuşdur. Belə tanınmış kürd sülalələrindən biri dəAzərbaycanın və bir sıra qonşu ölkələrin hərbi siyasi tarixində fəal rol oynamış Şəddadilər sülaləsidir. Bu sülalə X əsrin ortalarından XII əsrin sonunadək Cənubi Qafqazın Gəncə, Arran-Naxçıvan, Dvin və Ani əmirliklərində hakimiyyət başında olmuşlar. Görkəmli Azərbaycan tarixçisi, t. e. d. professor M. X. Şərifli 1978-ci ildə nəşr olunmuş "IX əsrin ikinci yarısı- XI əsrlərdə Azərbaycan feodal dövlətləri " monoqrafiyasında Şəddadilər dövləti haqqında qiymətli məlumatlar verir. Üstündən xeyli vaxt keçməsinə baxmayaraq ilkin mənbələr əsasında yazılmış bu əsər öz əhəmiyyətini indi də saxlayıb. Bu sayımızdan başlayaraq bu əsərin Şəddadilər dövlətindən bəhs edən hissəsini bəzi dəyişiklik və əlavələrlə diqqətinizə çatdıracağıq.

Gəcə Şəddadilər dövləti X əsrin II yarısında əmələ gəlmişdir. Bu dövlətin ərazisi əsas etibarilə şimalda Kür çayı, cənubda Araz çayı, şərqdə Beyləqan nahiyəsi, qərbdə Xunan qalasına(Al-İstakhri. Kitab Masalik al-Mamalik, ed. de Goeje, BGA, t. I Lugd. Batav, 1870, səh. 193) qədər uzanan Arran torpaqlarını əhatə etmişdir. Məlum olduğu kimi , Arran vilayətinin ərazisi ayrı-ayrı dövrlərdə öz sərhədlərini dəyişmişdir. İstəxri Arran vilayətindən bəhs edərkən göstərir ki, Arranın sərhədi Dərbənddən Tiflisə və Araz çayı yaxınlığında Naxçıvan adlanan yerə qədər çatır(Yenə orada, səh. 190). İbn Hövqəl Bərdə haqqında bəhs etdiyi zaman onu Ümmür-Ran , yəni Arranın anası hesab edir. (İbn Haukal. Liber imaginis terrae. ed. J. H. Kramers. Lugd. Batav 1939, səh. 337)o göstərir ki, Arranda Bərdə, əl-Bab(Dərbənd) və Tiflisdən böyük şəhər yoxdur. Beyləqan, Varsan, Bərdic, Bərzənc, Şamaxiya, Şirvan, Laican, Şabran, Qəbələ, Şəki, Cənzə(Gəncə), Şəmkür vəXunan isə kiçik vilayətlərdir;şəhərləri gözəl, eyni böyüklükdə və məhsuldardır, yararlı təsərrüfat sahələrinə malikdir. (Yenə orada, səh. 342). Müqəddəsi "Əhsən ət –təkasim fi-mərifət əl-əkalim" əsərində yazır ki, Arrana gəldikdə o dəniz ilə Araz çayı arasında yarımada şəklində olub bütün vilayətin təqribən üçdə birini təşkil edir. Məlik çayı vilayəti ortadan bölür, onun paytaxtı Bərdədir. (Descriptio imperii moslemici auctore, ed. M. J. de Goeje, Lugd. Batav, BGA, t. III, 1872. Səh. 373)




Arran ölkəsi və buradakı şəhərlər haqqında Yaqut Həməvi belə yazır:"Arran ərəb adı deyildir , bu geniş ölkədir və çoxlu şəhərləri vardır. Xalq dilində Gəncə deyilən Cənzə, Bərdə, Şəmkür və Beyləqan onun şəhərlərindəndir".

Münəccimbaşının "Cami əddüvəl" əsərinin "Şəddadilər " fəslindən göründüyü kimi, çox məşhur olan Arran ölkəsi qərbdən. cənubdan və şərqdən Azərbaycanla. şimaldan isə Qafqaz dağları ilə həmsərhəddir. Naxçıvan, Gəncə, Dərbənd, Beyləqan, Şəmkür, Tiflis, hətta Şirvan da Arran şəhərlərindən sayılmışdır. (V. Minorski. Studies in Caucasian history, London, 1953. (Bundan sonra V. Minorski. Şəddadilər), səh. 6-8, 188)

Kəsrəvi Təbrizi arranlıları İran dillərinin birində danışan iranlıların bir qismi kimi göstərməyə çalışaraq onları VI əsrin axırlarında buraya köçüb gəlmiş Mehranilərlə əlaqələndirmişdir. (Kəsrəvi Təbrizi. Şəhriyarani –romnan, II cild, Tehran 1928, səh. 3). Şəddadilərin hakimiyyəti dövründə Arranın ən görkəmli şəhəri Gəncə idi. Onların hakimiyyəti Gəncədə təşəkkül etmiş və beləliklə Gəncə şəhəri Şəddadilər dövlətinin paytaxtı olmuşdu.

Şəddadilər ilk dəfə Dəbil (Dvin) ətrafında yaşamış 340 (951)-ci ildən Şəddadi Məhəmməd Dəbildə rəsmi olaraq hakimiyyət başına keçmişdir. Onun övladları isə 356 (966/7)-cı ildən sonra Gəncəyə gəlmişlər. 360 (970/1)-cı ildən burada hakimiyyəti ələ alaraq Azərbaycanda yeni bir feodal dövləti yaratmağa müvəffəq olurlar. (Səhayif əl -əxbar, səh. 507). Şəddadilərin ilk dövlət başçısı Dəbildə hakimiyyəti öz əlinə alan Məhəmməd ibn Şəddadın fəaliyyəti haqqında bəzi məlumat verməyi faydalı hesab edirik. Qeyd etmək lazımdır ki, Dəbildə müvəqqəti də olsa hakimiyyəti öz əlinə alan Məhəmməd ibn Şəddadın mənşə etibariylə kürd olduğunu istifadə etdiyimiz bütün ilk mənbələr təsdiq edir. Münəccimbaşı "Cami əddüvəl" əsərinin "Şəddadilər" fəslinin ilk sətirlərinə başladığı zaman onların kürd olduğunu təsdiq edir(Münəccimbaşı. Şəddadilər fəsli, səh. 1). İbn əl-Əsir Şəddadi Fəzlunun xəzərlər üzərinə hücum etməsiylə əlaqədar onu "Fəzlun əl-Kürdi" adlandırır(İbn əl-Əsir. Tarix əl-Kamil, VII-XI. Misir, hicri 1290. səh. 171). Yeri gəlmişkən qeyd edək ki, İbn əl-Əsir Vəhsudan və Məmlanın mənsub olduğu rəvvadilər tayfasının da kürd olduğunu göstərir. Kəsrəvi Təbrizi bu fikrin düzgün olmadığını qeyd edərək şəddadilərlə rəvvadilərin qohum olmadığını, şəddadilərin yerli olduğunu, lakin rəvvadilərin mənşə etibariylə ərəb olduğunu göstərir (Kəsrəvi Təbrizi. Gösrərilən əsəri III cild, səh. 7). Bunu da qeyd etmək lazımdır ki, İbn Xəlliqan Dvin şəhəri ətrafındakı kürdləri rəvvadi adlandırır(İbn Xəlliqan. Kitabe vəfiyyatül əyan və ənbaüz zəman. Təbriz, hicri 1257). Kəsrəvi isə bu rəvvadilər sözünün təşdidsiz yazıldığını və kürd şəddadilərin bunlardan olduğunu göstərir( Kəsrəvi Təbrizi Göstərilən əsəri, səh. 7).

Gəncə Şəddadilər dövləti Salarilərin Azərbaycanda hakimiyyət sürdükləri dövrdə əmələ gəlmişdir. Münəccimbaşının məlumatına görə Azərbaycan Salarilər dövlətinin başçısı Mərzuban 337(948/9)-ci ildə Rey hakimi ilə müharibə zamanı əsir düşərək Səmirəm qalasında dörd ilə qədər. yəni 337-341 (948-953)-ci illərdə həbsdə saxlanılmışdı. Bu zaman Azərbaycan dövlətində qayda pozulmuş və hər bir vilayətdə feodal hakimlər baş qaldırmışdı(V. Minorski. Şəddadilər, səh3). Hətta Mərzubanın övladları onun həbs etdiyi sabiq Azərbaycan hakimi Deysəm ibn İbrahimi (Sacilər dövlətinin sonuncu hökmdarı(932-941) Deysəm ibn İbrahim ibn Şadluyə əl Kürdi-N. H. ) həbsdən azad etmişdilər. Deysəm Azərbaycanda gəzərək özünə tərəfdarlar axtarırdı. Bu zaman müstəqil olmağa çalışan feodallardan biri də Məhəmməd ibn Şəddad ibn Qurtaq idi (Yenə orada. ). Məhəmməd ibn Şəddad fürsətdən istifadə edərək Salarilər dövlətinə tabe olan Dəbil şəhərini tutaraq hakimiyyətini möhkəmlətməyə başlamışdı. Məhəmməd Dəbil şəhərini və əhalisini düşmənin hücum və basqınlarından mühafizə etməyi öz öhtəsinə götürərək əhaliyə bir sıra bir sıra vədlərdə vermişdi. (Yenə orada) Erməni müəllifi Vardan (1271-ci ildə ölmüşdür) şəddadilərin mənşəyi və Gəncəyə gəlmələri haqqında çox qəribə bir məlumat verir. O yazır:"Həmin günlərdə Parisos nahiyəsinə (Dağlıq Qarabağ vilayətindədir) şanlı knyaz Qriqorinin (Magistros) yanına İrandan üç oğlu ilə bərabər Mam adlı bir qadın gəldi. Oğullar öz anasını knyaza girov verdi, Şotk



və Şamiram (Vaspurakan vilayətində) qalalarını aldılar ". (Vardan. Vseobşaya istoriya, Moskva 1861, səh. 125). Vardan bununla 1044-cü il hadisələri ilə əlaqədar olaraq şəddadilərin Gəncəyə gəlməsi və Fəzlun haqqında bəzi məlumat vermişdir. Vardanın "Mam adlı bir qadın üç oğlu ilə İrandan Qriqor Magistrosun yanına Parisos nahiyəsinə gəldi"-deyə yazdığı bu qəribə məlumata başqa mənbələrdə təsadüf edilmir. Yuxarıda qeyd edildiyi kimi Şəddadi Məhəmməd öz oğulları ilə Dvin ətrafına gəlmişdi. Bunu da qeyd etmək lazımdır ki, o zaman Rəvvadi Məhəmmədin "Məmlan" adlandığı məlumdur. Lakin Vardan Məhəmməd adlı kişinin nə üçün "Mam" adlı qadınla qarışıq saldığı aydın deyildir. Bütün bunlarla bərabər Vardanın əsərində adların, tarix və sairənin



səhv olmasına baxmayaraq onun şəddadilər haqqındakı yazılarında qiymətli tarixi məlunat vardır.

Məhəmmədin Dəbildəki hərəkətləri Azərbaycan hakimi Mərzubanın oğlu İbrahimə yetişdi. Mərzuban Səmirəmdə həbsdə olduğu zaman Azərbaycanı oğlu İbrahim idarə edirdi. Məhəmməd ibn Şəddadın Dəbili tutduğunu eşidərək İbrahim atasını vassalı Deyrmus (Veyzur) hakiminə məktub yazaraq Dəbili mühasirə edib Məhəmmədi oradan qovmasını tapşırdı. Deyrmus hakimi də qoşun toplayaraq Məhəmməd ibn Şəddadın üzərinə getdi. Məhəmməd isə əhalinin qüvvəsi ilə düşmənə şiddətli müqavimət göstərdi. Araz çayı sahilində baş verən vuruşmada Məhəmməd qələbə çaldı, Deyrmus hakiminin qoşunları qaçaraq yaxın meşələrdə gizləndilər. Bu hadisədən sonra Məhəmməd özünü və ailəsini müdafiə etmək üçün Təll həsli adlı qala tikdirdi. Məhəmmədin qələbə çalması xəbəri Ərdəbilə çatdıqda İbrahim Dəbilə hücum etmək üçün qoşun toplamağa başladı. O, kürd və deyləmlilərdən böyük bir ordu toplayaraq Məhəmmədin üstünə göndərdi. İbrahimin piyada və süvarilərdən ibarət olan qoşunları Dəbil darvazalarına çatdıqda Məhəmməd onları qarşıladı və birinci hücumlarını dəf etdi. Lakin bundan sonra döyüş dahada şiddətləndi. Dəbil əhalisi buna dözə bilmədiyi üçün Məhəməddən aralandı. Döyüş meydanında yalnız öz adamları ilə qalan Məhəmməd ibn Şəddad da məcbur olaraq geri çəkilib öz qalasına sığındı və sonrada adamları ilə bərabər Ermənistana getdi. Bundan sonra Dəbil əhalisiMəhəmmədin yanına hörmətli şəxslər göndərərək qayıtmasını xahiş edərək, bir daha ona xəyanət etməyəcəklərini vəd etdilər. (V, Minorski. Şəddadilər, səh. 9). Başqa bir fikirə görə Məhəmməd Dəbil ətrafındakı döyüşdən sonra Ərzuruma getmişdi. Lakin V. Minorskinin rəyinə görə bu zaman Məhəmməd Vaspurakandan uzaq getməmişdir. O eylәmlilərin təzyiqi nəticəsində Araz çayını cənuba doğru keçərək Vaspurakana getmişdi. (Yenə orada, səh. 37). Məhəmməd dəbillilərin xahişini qəbul edərək Dəbilə qayıtmış və burada hakimiyyəti yenidən əlinə allmışdı.

**(ardı var)**

***Səhifəni hazırladı: Namiq Həsənov***

# "MƏN FƏXR EDİRƏM Kİ, AZƏRBAYCANLIYAM!"

**HEYDƏR Əliyev**







Bir iyul tarixində BMM-də Azərbaycanımızı dünya ictimaiyyətinə




tanıdan, həyatda özünə məxsus mövqe qazanan, xalqımızın dəyərli oğlu həmyerlim qonaq qismində tədbirdə iştirak edən Nazir Hətəmovla görüşümüz oldu.

Görüşə bir çox ictimai təşkilatların nümayəndələri, tanınmış jurnalıstlər, qəzet redaktorları, dəyərli qələm sahibləri, şairlər və Qarabağ Qaziləri ilə bərabər ürəyi Qarabağ həsrəti ilə döyünən vətən sevərlər iştirak edirdi. Hətda tədbirə qatılanlar arasında şəhid ailələri də vardı.

Görüş Ulu Öndər Böyük HEYDƏR ƏLİYEVİN xalqımızı birliyə çağıran "Mən fəxr edirəm ki, AZƏRBAYCANLIYAM" kəlamıyla tədbir iştirakçıları Vətənimiz Azərbaycanın sabitliyindən, inkişafından dünyadakı mövqeyindən danışıldı. İctimai təşkilat nümayəndələrinin çıxışlarından sonra hörmətli qonağa xüsusi mükafatlar təqdim edldi.

Tədbirdə Xalq Qəhrəmanı adı ilə yaddaşlarda əbədi həkk olunan Laçın yurdunun qəhrəman oğlu SOLTAN BƏYİN nəvəsi, "Demokratik Cəmiyyət və Qadın Hüquqlarının Müdafiəsi" İctimai Birliyi, DİN İnsan alverinə qarşı




mübarizə və QHT-lər koalisiyasının təsisçisi və üzvü, Hüquqşünas Qadınlar Assosiyasının təsisçisi Abdullayeva Mehriban Əli qızı da iştirak edirdi.

Dəyərli qələm sahibi ustad, şair-qəzəlxan Məmməd Məcidoğlunin söylədiyi qəzəl məna etibarı ilə iştirakçıların və qonağımızın ruhunu oxşadı.

Özünə məxsus yurd həsrəti şeirləri ilə tanınan şairə xanım, Xuraman Camalqızı özünün şeirləri olan kitabını qonağımıza hədiyyə etdi.

Bildirmək isəyirəm ki, mən də öz növbəmdə "QARABAĞNAMƏ" kitabının (bundan öncə olan 1-ci və 2-ci hissələrini ötən il qonağımıza təqdim etmişdim) aprel şəhidlərimizə həsr etdiyimiz 3-cü hissəsini və Naxış jurnalınında Ulu Öndərimiz HEYDƏR ƏLİYEVƏ həsr etdiyim GÜL BAYRAMI poeması nəşr olunan 2-ci sayını, və bundan əlavə olaraq 10 may 2017-ci il tarixində Ulu Öndərimiz Heydər ƏLİYEVİN doğum gününə həsr olunmuş "DİPLOMAT" qəzetinin xüsusi buraxılşı olan sayından bir neçə nüsxəsni dəyərli qonağımıza hədiyyə etdim. Məlumat üçün bildirmək istəyirəm ki, qəzetin bu sayında baş redator və təsisçi dəyərli ziyalımız Tahir Süleyman Ulu Öndər HEYDƏR ƏİEVƏ həsr etdiyim "Gül Baramı" poemasını tam şəkildə nəşr etmişdir. Tədbirin sonunda qonağımızın vətənpərvərlik runundakı çıxışı alqışlarla qarşılandı.

Şükürlər olsun ki, mən də fəxr etməli bir ciyər paramı bir daha gördüm və sinəmə sıxdım. O, vətəndən uzaqlarda olsa da mənim yaralı ürəyimi qızdıra bildi. Onun haqq yolunda olduğu XALQ və VƏTƏN sevgisi məni çox sevindirir. Tanıdığım son bir il ərzində Nazir Hətəmovun Azərbaycanımızı Rusiya Fedarasiyası daxilində laiqincə təmsil etməklə yanaşı bütün mötəbər tədirlərdə üç rəngli bayrağımızı böyük qürur hissi ilə dalğalandırmışdır. Onun əmllərinə görə həmişə mən sevinc hisslərini yaşayıram.

**NAZİR ALLAH SİZİ QORUSUN!!!**

Bu günki, tədbirin sonunda həmişəki kimi ənənəvi olaraq hamılıqla Azərbaycanımızın Dövlət Himini birlikdə qürur hissi ilə oxuduq.

Xatirə şəkilləri çəkdirdik. Son olaraq fikirlərimizi bölüşmək üçün çay masası arxasında bir arada birləşərək bir daha söhbətimizi davam etdirdik.

Dostlar görüşün bəzi anlarının foto görüntülərini sizlərə təqdim edirəm.









Назир Гатамов родился 10 июля 1976-го года в селе Данбулаг Лачинского района. С 1996 по 2012-ые годы служил в рядах ВС России. Был начальником службы Военного Комиссариата Сахалинской области.

Занимающийся ныне предпринимательской деятельностью Н.Гатамов с июня 2013-го года является региональным руководителем ВАК по Сахалинской области.

***01.07.2017***

***Ədalət Bədirxanlı.***



Nəriman Əyyub

### RÜBAİLƏR

*(Əvvəli ötən saylarımızda)*

"Yaşamaq yanmaqdır" deyib Bəxtiyar,
Vahabzadə daim könüllərdə var.
Səmimi yaşadı fani dünyada,
